**Natiq MÜRSƏLOV**
*AMEA Mərkəzi Elmi Kitabxananın doktorantı*

# AZƏRBAYCANDA KİTABXANA FONDLARININ FORMALAŞDIRILMASI VƏ MÜHAFİZƏSİ SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

***Açar sözlər:*** *kitabxana işi, kitabxana fondu, dövlət siyasəti, qanun*
***Ключевые слова:*** *библиотечной деятельности, библиотечный фонд, государственной политики, права*
***Keywords:*** *library activities, library fund, public policy, law*

Müstəqillik dövründə formalaşan Azərbaycanın kitabxana işi siyasəti kitabxanaların təşkil və idarə edilməsində dərin struktur islahatları, ölkənin kitabxana quruculuğu sahəsində qabaqcıl dünya təcrübəsindən məhsuldar istifadəni təmin etməyi nəzərdə tutur. Bu siyasətin əsas vəzifəsi elmi cəhətdən əsaslandırılmış proqramlar əsasında "mənəvi və elmi istehsal" sahəsinin idarə edilməsinin səmərəliliyini artırmaqdır.

İntellektual inkişaf, mənəvi azadlıq və etik tərbiyə prioritetlərinə yönəldilmiş demokratik kitabxana işi siyasəti Azərbaycan mədəniyyətinin sosial dinamikasında köklü dəyişikliklərə kömək etməyə, Azərbaycan xalqının yaradıcı potensialının və onun insan, cəmiyyət və dövlətin inkişafı baxımından istifadə edilməsi imkanlarını ölçülməz dərəcədə yüksəltməyə xidmət edir.

Kitabxana işi siyasətinin məqsədi insan həyatının yaxşılaşdırılmasına xidmət etmək və keçmişi qoruyub saxlamaq, indini dəstəkləmək və inkişaf etdirməkdirsə, əsas vəzifəsi maddi və mənəvi sərvətlərin toplanıb mühafizə edilməsi və inkişaf etdirilməsi, eyni zamanda gələcək nəsillərə ötürülməsi üçün şəraitin yaradılması, onların əhali arasında geniş təbliği, Azərbaycan xalqının adət və ənənələrinə bağlı, milli, mənəvi və mədəni, intellektual,



bəşəri dəyələrə yiyələnən, müstəqil və yaradıcı düşünən vətəndaşlar yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir.

Müasir şəraitdə kitabxanalar kommunikasiya vasitəsi kimi olduqca böyük rol oynamaqla, cəmiyyətin informasiyalaşdırılması prosesində çox əhəmiyyətli iş görür. Bəşəriyyətin tarixi inkişaf mərhələlərində olduğu kimi, son onillikdə də informasiya, elmi-texniki və sosial tərəqqinin mühüm vasitələrindən biri olmuş, hazırda isə cəmiyyətin informasiyalaşdırılması ilə əlaqədar olaraq aparıcı qüvvəyə çevrilmişdir. Bununla əlaqədar olaraq yeni kitabxana-informasiya mühiti formalaşdırılmışdır.

Qloballaşan informasiya cəmiyyəti şəraitində elmi-fəlsəfi və ədəbi-bədii irsin toplanıb saxlanılmasında, gələcək nəsillərə çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında mühüm rol oynayan kitabxanaların fondlarının müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsi, elektron məlumat banklarının yaradılması və ümumilikdə müasir kitabxana-informasiya resurslarının formalaşdırılması, mühafizəsi və təbliği mədəniyyət sahəsində Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən birini təşkil edir.

Azərbaycanda kitabxana-informasiya resurslarının formalaşdırılması, mühafizəsi və təbliği sahəsində son illərdə bir sıra mühüm dövlət sənədləri qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamları ilə təsdiq edilmiş siyahı üzrə latın qrafikası ilə nəşr olunmuş kitablar ölkənin bütün kitabxanalarına hədiyyə edilmişdir. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Eyni zamanda, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı", "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)", "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)", "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" kimi mühüm sənədlərdə kitabxana-informasiya resurslarının inkişafı və modernləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur(1).

Kitabxana-informasiya resurslarının formalaşdırılması, mühafizəsi və təbliği sahəsində dövlət siyasətinin məqsədi ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdən ibarətdir. Bundan başqa, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələr həyata keçirilir:

- milli informasiyalaşdırma siyasəti əsasında ölkədə fəaliyyət göstərən kitabxanalar modernləşdirilir;
- kitabxana-informasiya resursları dünya məkanına inteqrasiya olunur, beynəlxalq təcrübə öyrənilir və tətbiq edilir;



- kitab nəşri, yayımı və fondun komplektləşdirmə işini tənzimləyən, maraqlı tərəflərin mənafeyini ifadə edən "müəllif-nəşriyyat-kitabxana-oxucu" mexanizmi və infrastrukturu təkmilləşdirilir;
- elektron informasiya fondları formalaşdırılır və virtual kitabxanalar inkişaf etdirilir;
- elektron kataloq və elektron kitabxanaların yaradılması işi təmin edilir, onlar müasir standartlar səviyyəsinə çatdırılır;
- kitabxana fondları zənginləşdirilir, onların mühafizəsi və təhlükəsizliyi təmin edilir;
- kitabxana fondlarının müasir komplektləşdirmə mexanizmi yaradılır, inkişaf etdirilir və müasir informasiya daşıyıcıları ilə təmin edilir;
- respublikanın milli–mədəni irsi və informasiya ehtiyatları gələcək nəsillərə çatdırılması məqsədilə qorunur.

Azərbaycanda kitabxana - informasiya resurslarının formalaşdırılması və onların dünya informasiya məkanına inteqrasiyasının təmin edilməsinə Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda xüsusi yer verilmişdir. Dövlət proqramının icrası ilə əlaqədar olaraq Azərbaycanda fəaliyyət göstərən bütün kitabxana şəbəkələri kitabxana-informasiya resursları ilə bağlı qarşıya qoyulan vəzifləri müvəffəqiyyətlə yerinə yetirmişdir.

Azərbaycanda elmin informasiya təminatını həyata keçirən ən iri kitabxana-informasiya müəssisəsi AMEA Mərkəzi Elmi Kitabxanasıdır. Kitabxananın fondu 50 dildə məzmunca universal, dünya əhəmiyyətli 4 milyon elmi nəşrdən təşkil olunub. Buraya görkəmli elm və mədəniyyət xadimlərinin şəxsi kitab kolleksiyaları, nadir və qiymətli nəşrlər, monoqrafiyalar, dissertasiyalar,

dövri nəşrlər, xəritə və atlaslar, məlumat nəşrləri, təsviri sənət materialları və 90 min elektron nəşr daxildir. Azərbaycan, rus, türk, fars, ərəb, ingilis, alman, fransız və b. dillərdə olan fondların xronoloji əhatəsi XVII-XXI əsrlərə aiddir.

Mərkəzi Elmi Kitabxana "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın müvafiq bəndlərinə uyğun olaraq dünya informasiya sistemində kitabxana resurslarının təbliği, dövlətlərarası ədəbiyyat və informasiya mübadiləsinin dinamik inkişafı istiqamətində 2008-2013-cü illərdə aşağıdakı mühüm işləri yerinə yetirmişdir :

- Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədi ilə ölkəşünaslığa və diyarşünaslığa dair materiallarla zənginləşdirilməsi ilə bağlı ölkəşünaslığa və diyarşünaslığa dair məcburi nüsxələr, nəşriyyatlardan əldə olunmuş ədəbiyyat, beynəlxalq mübadilə yolu ilə alınan nəşrlər, satınalma, Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin səfirlikləri, təşkilat və qurumları, eləcə də ayrı-ayrı alim və mütəxəssislər, təşkilatlar tərəfindən hədiyyə olunmuş kitablar hesabına Mərkəzi Elmi Kitabxananın fonduna 15147 nüsxə ədəbiyyat daxil olmuşdur .

- Ölkəşünaslığa (azərbaycanşünaslığa) dair Rusiya Dövlət Kitabxanasında, Rusiya Milli Kitabxanasında, Kazan, Tbilisi şəhər və digər milli kitabxanalarda saxlanılan ədəbiyyatın ( o cümlədən dövri mətbuatın) müəyyənləşdirilməsi və onların çatışmayan nüsxələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədi AMEA Mərkəzi Elmi Kitabxanası Rusiyanın Moskva, Sankt-Peterburq, Kazan və digər şəhərlərinin kitabxanalarına XIX əsrin əvvəllərində aparılmış azərbaycanşünaslığa dair kitabların geri qaytarılması üçün MDB dövlətlərinin, o cümlədən, Rusiya Dövlət Kitabxanası, Belarus, Qazaxıstan, Gürcüstan Milli kitabxanalarının, Qomel universal vilayət kitabxanasının fondlarında saxlanılan Azərbaycanla bağlı ədəbiyyat siyahıları əldə olunmuş, onlara əsasən kitablar seçilmiş və həmin əsərlərin əslinin yaxud surətlərinin gətirilməsi üçün sifarişlər verilmişdir. Nəticədə 180-ə yaxın ədəbiyyat Kitabxananın fonduna daxil edilmişdir.



- "Azərbaycan ədəbiyyatının virtual kitabxanası" nın yaradılması və oxucuların istifadəsinə verilməsi məqsədilə Mərkəzi Elmi Kitabxana tərəfindən Azərbaycan ədəbiyyatına dair 62 nüsxə kitab rəqəmləşdirilərək oxucuların istifadəsinə verilmişdir.

- "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi", "Azərbaycan muzeyləri", "Qobustan", "Azərbaycanın turizm gözəllikləri" adlı elektron kitabxanaların yaradılması istiqamətində Mərkəzi Elmi Kitabxanada "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi", "Azərbaycan muzeyləri", "Qobustan", "Azərbaycanın turizm gözəllikləri" adlı elektron kitabxanalar yaradılmış və 795 nüsxə sənəd rəqəmləşdirilmişdir.

- Azərbaycan Respublikasının kitab abidələrinin müəyyən edilməsi, informasiya daşıyıcılarına köçürülməsi və "Azərbaycanın kitab abidələri" adlı məlumat bazasının yaradılması istiqamətində Mərkəzi Elmi Kitabxananın fondları əsasında 1899-cu ilədək olan nəşrlər, eləcə də 1900-cu ildən sonra çap olunan mühüm əhəmiyyətli 619 nüsxə nəşr müəyyən edilmiş və onlar haqqında biblioqrafik məlumat verilmişdir. Kitabların ölçüsü, çap kağızının materialı, fiziki-kimyəvi vəziyyəti, mühafizə rejimi, daxilolma tarixi, annotasiyası, xüsusi qeydlər və s. təhlil olunmuş, nəticədə "Azərbaycan kitab abidələri" məlumat bazası yaradılmışdır.

- Xüsusi əhəmiyyətli çap sənədlərini, nadir kitabları, diyarşünaslığa aid nəşrləri qoruyub saxlamaq və nəsillərdən-nəsillərə ötürmək məqsədi ilə onların informasiya daşıyıcılarına köçürülməsi istiqamətində Mərkəzi Elmi Kitabxananın fondlarından 168 nüsxə xüsusi əhəmiyyətli çap sənədləri, nadir kitablar, diyarşü-

naslığa aid nəşrlər seçilmiş və bu nəşrlər təhlil olunaraq elektron informasiya daşıyıcılarına köçürülmüşdür.

- "Azərbaycanın kitab yaddaşı" adlı layihənin həyata kecırılməsi və müvafiq məlumat bazasının yaradılması istiqamətində Mərkəzi Elmi Kitabxananın fondlarında saxlanılan qədim və raritet kitablar əsasında "Azərbaycanın kitab yaddaşı" adlı məlumat bazası yaradılıb. Bazaya 1497 nüsxə ədəbiyyat daxil edilib (2).

AMEA Mərkəzi Elmi Kitabxanasının beş dildə (Azərbaycan, rus, ingilis, fransız, alman) fəaliyyət göstərən www.csl-az.com veb səhifəsi vasitəsilə Kitabxananın elektron kataloq və elektron kitabxanası oxucuların istifadəsindədir.

## *ƏDƏBİYYAT SİYAHISI:*

1. Xələfov A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktorinası uğurla davam edir. – Bakı, 2009. – 185 s.

2. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı: Azərnəşr, 2006. – 311 s.

3. Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı.

4. AMEA Mərkəzi Elmi Kitabxanasının 2008-2012-ci illər hesabatı.

**Натиг Мурсалов**

## ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА О СОЗДАНИЕ И ХРАНЕНИЕ БИБЛИОТЕЧНЫХ ФОНДОВ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В этом статье были проанализированы формирование информационных ресурсов библиотек, защита и поощрение работы, проделанной в связи с политикой государства. Особое внимание было уделено деятельности Центральной Научной Библиотеки НАНА.



**Natig Mursalov**

## PUBLIC POLICY OF FORMATION AND PROTECTION OF LIBRARY FUNDS IN AZERBAIJAN

### SUMMARY

The article says that the formation of library and information resources, the protection and promotion of the work done on public policy in the direction analyzed. This area of activity is given to the Central Scientific Library.